BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2015

**UOT 94 (479.24)**

# FEVRAL İNQİLABI: ÇARİZMİN SÜQUTU VƏ SİYASİ PARTİYALAR (I məqalə)

**İ.A.QULİYEV**
***Bakı Dövlət Universiteti***
***isa.guliev@mail.ru***

*Fevral inqilabı Rusiyada Romanovlar sülaləsinə son qoydu. Ölkədə hakimiyyət Petroqrad Soveti ilə Müvəqqəti hökumətin əlinə keçdi. İkihakimiyyətlilik yarandı. Milli regionlarda yeni hakimiyyət orqanları yarandı. Partiya və təşkilatlar fəallaşdılar.*

**Açar sözlər**: Fevral inqilabı, fəhlə, əsgər, çar, Petroqrad soveti, Müvəqqəti hökumət, siyasi partiyalar, ikihakimiyyətlilik

1917-ci ilin əvvəlində ölkədə iqtisadi vəziyyətin kəskin şəkildə pisləşməsi, cəbhədə bir-birinin ardınca olan uğursuzluqlar və çoxlu canlı qüvvə itkisinin baş verməsi, eyni zamanda hökumətin ölkəni idarə edə biləcək gücdə ola bilməməsi, rus cəmiyyətinin bütün təbəqələri tərəfindən çar rejiminə olan inamı itirmişdi. Fevralın 23-də şaxtada çörək növbəsinə duran qadınlar arasında qarışıqlıq yarandı ki, bu da mütləqiyyətin devrilməsi və müharibənin dayandırılması şüarları altında kütləvi nümayişə çevrildi (19, 14-15). Petroqradda baş verən bu nümayişi polisin atlı və piyada qüvvələri tərəfindən dağıtmaq mümkün oldu. Nümayişi dağıdarkən odlu silahdan istifadə edilmədi. Lakin sonrakı günlər vəziyyət getdikcə gərginləşdi və fevralın 25-də inqilabi qüvvələrlə «rejim tərəfdarları» arasında qarşıdurma baş verdi ki, nəticədə ilk yaralılar və ölənlər oldu (16, 36-37).

1917-ci ilin fevralın 25-dən 26-na keçən gecə aramsız genişlənən fəhlə tətillərinin təsiri altında, Nazirlər kabineti Petroqrad hərbi dairəsinin komandiri general S.S.Xabalov başda olmaqla, hərbi hakimiyyətlə birlikdə mövcud vəziyyəti ətraflı müzakirə etmək qərarına gəldi. İclasda general S.S.Xabalov və daxili işlər naziri A.D.Protopopov bir daha əmin etdilər ki, kütləvi hərəkatı hərbi güclə dağıda biləcəklər. Eyni zamanda Protopopov Dumanın buraxılması təklifini də irəli sürdü. Lakin Nazirlər Kabineti tətilçilərə qarşı cəza tədbir-

lərinin görülməsinə qarşı etiraz etməsə də, Dumanın «mütərəqqi bloku ilə hələ də razılığa gəlmək yollarını arayırdılar».

Xarici işlər naziri N.N.Pokrovski və torpaq naziri A.A.Rittixu qeyd edilən bloka daxil olan bəzi partiya liderləri ilə danışıqlara başlamağı tapşırdılar. Duma üzvləri hökumətə təxminən belə bir proqram təklif etdilər: Qolisin kabineti istefaya gedir, yeni baş nazir təyin edilir. Bu baş nazir – «ölkədə tanınmış və məşhur» olan general Alekseyev olmalı idi. Hökumətin formalaşması «onun öz ixtiyarına» buraxılırdı. Bunun üçün ona təxminən üç gün vaxt verilirdi ki, bu günlər ərzində Duma öz iclaslarını dayandırırdı. Bütün bunlar isə sonda «etimad nazirliyinin» formalaşmasına gətirib çıxarmalı idi.

Ancaq fevralın 26-da sanki vəziyyət çar hökumətinin xeyrinə dəyişməyə başlayır. Bəzi məlumatlara görə, 25-dən 26-na keçən gecə, digər bir məlumatda isə fevralın 26-da şəhər, general Xabalov əlaqə saxladığı ordu qərargahından əmr alır. Əmrdə göstərilir ki, «sabah paytaxtda iğtişaşlar dayandırılmalıdır». Bu ilk növbədə ordu hissələrinə yeni səlahiyyətlərin verilməsi idi. Xabalovun verdiyi təlimatlara uyğun olaraq fevralın 26-da ordu nümayişdə iştirak edən xalqa qarşı atəş açmağa başladılar. Paytaxtda yaranmış gərgin vəziyyəti müzakirə etmək üçün həmin gün Dumanın sədri Rodzyanko baş nazir Qolısinin yanına gedir və ona mövcud şəraitdə istefaya getməsinin daha düzgün olmasını inandırmağa çalışır. Bu zaman Qalısin gözlənilmədən: «Siz istəyirsiniz ki, mən gedim, bəs siz bilirsinizmi ki,məndəki bu qovluqda nə var?» - deyə bəyanat verdi. Baş nazir Duma sədrinə hələ 13 fevraldan çar tərəfindən imzalanmış Dumanın buraxılması haqqında fərmanı göstərdi. Dumanın buraxılması tarixini Qalısin özü qoya bilərdi. Ordunun nümayişçilərə qarşı odlu silahdan istifadə etməsindən sonra, axşama yaxın hakimiyyətə elə gəldi ki, sanki inqilabi hərəkat zəiflədi və vəziyyət onların tam nəzarəti altındadır. Bu vəziyyətdən istifadə edərək, Qolısin hökuməti çarın fərmanını əsas gətirərək, müdafiədən hücuma keçmək qərarına gəldi və fevralın 27-nə keçən gecə dövlət Dumanın buraxılmasını elan etdi. Beləliklə də, son günlərdə hökumətlə Duma arasında baş verən danışıqlara son qoyuldu. Eyni zamanda bu Nazirlər Kabinetinin sonuncu toplantısı oldu (16, 36-37).

Fevralın 27-də vəziyyət kəskin şəkildə dəyişdi. İnqilabi hərəkat geniş vüsət almağa başladı. Bolşeviklər Petroqrad fəhlə və əsgərlərinə vərəqələrlə müraciət edərək mübarizəni davam etdirməyə çağırdılar.

Çağırış vərəqləri aşağıdakı sözlərlə bitiirdi: «Rədd olsun çar monarxiyası! Yaşasın Xalq Respublikası! Bütün mülkədar torpaqları – xalqa! Fəhlələrə 8 saatlıq iş günü! Yaşasın Rusiya Sosial-Demokratik Partiyası! Yaşasın Müvəqqəti inqilabi hökumət! Qırğına son!» (9, 183). Mütləqiyyətlə mübarizədə bu gün həlledici gün oldu. Petroqrad əsgərləri fəhlələrə qoşuldular. Fevral inqilabı ərəfəsində Petroqrad qarnizonunda təxminən 180 minə yaxın əsgər və zabit var idi (20, 9). Əsgərlərin xalqın tərəfinə keçmələri inqilabın qələbəsini təmin etdi. Bu, ilk növbədə, fevralın 26-da fəhlələrin kütləvi şəkildə güllələnməsindən sonra baş verdi. Fevralın 27-si gün ərzində inqilabın hərbi qüvvələrinin artımı

aşağıdakı kimi baş verdi: üsyan etmiş əsgərlərin sayı səhər – 10200, gündüz – 25700, axşam isə 66700 təşkil etdi (20, 51).

Çar hökuməti başda knyaz N.D.Qolisin olmaqla böyük təlaş içərisində idi. Hər hansı bir köməkdən məhrum olan hökumət fevralın 27-də istefa vermək məcburiyyətində qaldı. Çar hökumətinin süqutu burjua-demokratik inqilabının qələbəsi demək idi.

1917-ci ilin fevralın 27-də axşam Petroqrad fəhlə deputatları Sovetinin ilk iclası keçirildi. İclasda menşevik N.S.Çxeidze Petroqrad fəhlə deputatları sovetinin sədri seçildi. Petroqrad sovetində menşevik və eserlər üstünlük təşkil edirdilər.

Fevralın 27-dən 28-nə keçən gecə buraxılmış Dumanın bir qrupu başda Rodzyanko olmaqla dumanın müvəqqəti komitəsini təşkil etdilər. Dumanın Müvəqqəti komitəsi çarın hakimiyyətdən getməsini, onun yerinə digər bir şəxsin gətirilməsi tələbini irəli sürdü. Bu təklifə hətta monarxist Şulgin də səs verdi. O, fikirləşirdi ki, «monarxı qurban verməklə, bəlkə də monarxiyanı xilas etmək mümkündür». Burjua partiyalarının liderləri də bu cür düşünür və hərəkət edirdilər (21, 228-229).

Martın 2-də fəhlə və əsgərlərin qarşısında Tavriçeski sarayında çıxışı zamanı Milyukov monarxiyanın taleyi haqqında verilən sualı cavablandırarkən bildirdi ki, «Rusiyanı ölüm həddinə gətirən II Nikolay könüllü şəkildə taxt-tacdan imtina etməlidir, əks halda devriləcəkdir… Varis II Nikolayın oğlu Aleksey olacaqdır». Çıxış zamanı zaldan «Yaşasın respublika!» «Rədd olsun sülalə!» - kimi şüarlar səslənməyə başladı. Bütün bunlar bir daha onu göstərirdi ki, kadetlərin lideri ən son ana qədər konstitusiyalı monarxiyanın tərəfdarı olaraq qalmışdı. Lakin xalq yeni çar haqqında belə eşitmək istəmirdi (21, 230).

Duma üzvləri ölkə üçün həlledici olan bu saatlarda böyük bir çaşqınlıq içərisində idilər. Belə ki, onlar son ana qədər ümid edirdilər ki, monarxiya quruluşunu saxlamaq mümkün olacaqdır. Bu məqsədlə Dumanın iki elçisi – oktyabristlər partiyasının lideri A.İ.Quçkov və millətçilərin rəhbəri V.V.Şulgini II Nikolayla danışıqlar aparmaq üçün ordu qərargahına göndərdilər. Onlar II Nikolaydan azyaşlı oğlunun xeyrinə hakimiyyətdən getməsinə nail olmalı idilər.

Bu ərəfədə maraqlı bir hadisə baş verdi. Belə ki, martın 1-də Dövlət Dumasının Müvəqqəti Komitəsi II Nikolayın yerləşdiyi Boloqoyevə üç nəfərdən ibarət nümayəndə heyəti göndərmək qərarına gəldi. Nümayəndə heyətinə IV Dövlət Dumasının sədri Rodzyanko və onun üzvləri oktyabrist Şidlovski ilə birlikdə menşevik Çxeidze daxil idilər. Duma üzvü olan oktyabrist Şabiç Rodzyankodan soruşur ki, «təminat varmı ki, nümayəndə heyəti sağ-salamat Petroqrada qayıdacaqlar və onları Boloqoedə həbs etməyəcəklər?» Sonralar Saviç bu hadisəni belə xatırlayırdı: «Bu sözlər nümayəndə heyətinə çox güclü təsir etdi. «Görünür, onlar bu haqda nə düşünməmiş, nə də qəti heç bir şeyi qabaqcadan görməmişdilər. Hər halda Rodzyanko uzun bir müddət və diqqətlə mənə baxdı və birdən dedi: «O haqlıdır, müvəqqəti komitənin sədri kimi mənə

ora getmək olmaz». Daha sonra o, qəti şəkildə getməkdən imtina etdi, baxmayaraq ki, Müvəqqəti Komitənin bəzi üzvləri təkid edirdilər. Sonra getməkdən Şidlyoski, daha sonra isə Çxeidze imtina etdi. Başqa sözlə, nümayəndə heyətindən heç nə qalmadı.

Məhz bu hadisədən sonra yuxarıda adları çəkilən A.İ.Quçkov və V.V.Şulginə müraciət edildi. Onlar isə dərhal yola düşdülər (14, 9-10).

II Nikolay Mogilyovu fevralın 28-dən martın 1-nə keçən gecə tərk etdi. Dəmiryolu cədvəli üzrə çarın qatarı martın 1-də gündüz Sarskoye Seloya gəlməli idi. Burada isə çarın gəlməsindən bir neçə saat əvvəl general İvanov Georgiyevski batalyonu ilə olmalı idi. Lakin qatar Sarskoye Seloya gedib çıxmadı. Əsas səbəb kimi keçəcəkləri stansiyaların artıq inqilabi ordu hissələrinin əlində olması göstərilir. Belə olan halda qatar istiqamətini dəyişərək Pskova yola düşdü. Şimal cəbhəsinin baş komandanı, general N.V.Ruzskonun qərargahı məhz burada yerləşirdi.

Martın 1-də, günün sonuna yaxın çarın qatarı Pskova çatdı. Bu elə bir məqam idi ki, general M.V.Alekseyevin başçılıq etdiyi, Mogilyovda yerləşən baş qərargahın siyasi mövqeyi dəyişmişdi.

Əgər martın 1-nə kimi, general Alekseyev inqilabın hərbi yolla yatırılması və bunun üçün general İvanovun başçılığı ilə hərbi cəza dəstəsinin təşkili xəttini müdafiə edirdisə, artıq Petroqradda baş verən hadisələr haqqında yeni məlumatlar aldıqdan sonra Dumanın Müvəqqəti komitəsi ilə razılığa gəlməyin nə qədər vacib olduğunu üzə çıxardı. Komitənin nümayəndələri onu inandırmışdılar ki, onların «məsuliyyətli nazirlik» tələbləri yerinə yetirilərsə, inqilabı dayandırmaq olar və beləliklə də, monarxiyanı xilas etmək, Almaniya ilə müharibəni qələbəyə qədər aparmaq mümkündür. Baş qərargaha bir-birinin ardınca teleqramlar daxil olmağa başlayırdı. Bu teleqramlarda inqilabın geniş vüsət alması, yeni-yeni hərbi hissələrin inqilabçılar tərəfinə keçmələri, nazirlərin və digər çar məmurlarının həbsi haqqında xəbərlər var idi. Bu məlumatlardan sonra aydın oldu ki, general İvanovun dəstəsi inqilabı qüvvələri yatırtmaq üçün kifayət deyildir. Yeni hərbi birliklərin hazırlanaraq Petroqrada göndərilməsi isə 10 gündən çox vaxt tələb edə bilərdi (16, 69-71).

Belə bir vəziyyətdə general Alekseyev Dumanın burjua liderlərinə kömək etmək qərarına gəldi və onun bu addımını köməkçilərinin və cəbhə komandirlərinin əksəriyyəti tərəfindən müdafiə ediləcəyinə inanırdı... Ona görə də, vaxtı itirmədən yüksək vəzifəli general heyətinin bir qrupunun bu məsələ ilə bağlı fikrini öyrəndi. Verilən cavablar, onun mövqeyini bir daha müdafiə etməsi general Alekseyevin daha bir qəti addım atmasına səbəb oldu. Belə ki, onun rəhbərliyi ilə baş qərargahda Rodzyanko başda olmaqla «xalq nümayəndələri qarşısında cavabdeh olan nazirliyin» yaradılması haqqında sənədin layihəsini tərtib edərək imza üçün Pskova göndərdilər. Bu zaman martın 1-i axşam saat 11 idi. Lakin Pskovdan cavab gəlmirdi. General Ruzskiy II Nikolayı Baş qərargahın yeni mövqeyinin qəbul edilməsinə heç cür inandıra bilmirdi. Nəhayət, II Nikolay martın 2-si gecə saat 1-də məsuliyyətli nazirliyin

yaradılmasına razılıq verdi. Bu isə general İvanovun cəza dəstəsinin Petroqrada göndərilməsindən imtina demək idi və baş qərargaha ordunun hərəkətinin dayandırılması haqqında göstəriş verildi. Nəhayət, çar ilə Dumanın Müvəqqəti komitəsi arasında çoxdan gözlənilən razılıq əldə edilmişdir. Petroqradda baş verən son hadisələrdən xəbəri olmayan general Ruzski bu «şad xəbəri» Rodzyankoya xəbər vermək üçün öz qərargahına getdi. Onlar arasında danışıqlar martın 2-si səhər saat 3.30 dəqiqədə başladı və 4 saat davam etdi. Ruzski Rodzyankoya çarın nə qədər mümkündürsə güzəştə getdiyini, yəni general İvanovun başçılığı ilə olan cəza dəstələrinin Petroqrada göndərilməməsinin və «məsuliyyətli nazirliyin» yaradılmasına razılıq verdiyini bildirdi. Rodzyanko bu xəbərləri dinlədikdən sonra, bildirdi ki, «məsuliyyətli nazirlik» haqqında hazırlanmış sənəd gecikdirilmiş bir sənəddir və bu sənəd artıq heç kəsi təmin edə bilməz. O, açıq şəkildə bəyan etdi ki, mövcud vəziyyətdən çıxış yolu II Nikolayın oğlu Alekseyin xeyrinə taxt-tacdan imtina etməsidir. Həqiqətən də, martın 2-də gündüz Tavriçeski sarayında çıxış edən kadetlərin lideri Milyukov bildirdi ki, hakimiyyət II Nikolaydan Alekseyə keçəcəkdir, böyük knyaz Mixail Aleksandroviç isə onun regenti seçiləcəkdir. Bu xəbər şəhərdə böyük hay-küyə səbəb oldu. Zavodlarda və hərbi hissələrdə etiraz mitinqləri başladı. Petroqrad Sovetinin orqanı olan «İzvestiya» qəzeti yazırdı: «Romanovlar sülaləsi artıq devrilmişdir… ona qayıtmaq mümkün deyildir» (16, 72-73).

Göründüyü kimi, istər burjua, istərsə də mülkədar monarxist partiyaları çarizmin qorunub saxlanması üçün cəhdlər edirdilər. General Ruzski Rodzyanko ilə danışıqlarını Mogilyovda yerləşən Baş qərargaha bildirdi. Baş qərargah dərhal bu məsələyə münasibətini bildirdi, artıq geri çəkilmək olmazdı və ordu rəhbərliyi Dumanın Müvəqqəti komitəsinə qarşı yeni bir addım atdı. General Alkeseyev bütün cəbhələrin komandirinə təmimi teleqram imzaladı. Teleqramda cəbhələrin baş komandirlərinə Dövlət Dumasının Müvəqqəti Komitəsinin yeni mövqeyi haqqında qısa məlumat verilirdi. Yeni mövqenin əsasını II Nikolayın regenti Mixail Aleksandroviçə olacaq oğlu Alekseyin xeyrinə taxt-tacdan imtina etməsi idi. Teleqramın sonunda general Alekseyev cəbhə komandirlərinə fikirlərini Pskova göndərməyi xahiş edirdi. Gündüz saat 2-də general Alekseyev cəbhə komandirlərindən lazım olan cavabları aldı. Cəbhə komandirləri general Alekseyevin mövqeyini müdafiə etdiklərini bildirdilər. Bunlar Qafqaz cəbhəsindən böyük knyaz Nikolay Nikolayeviç, Cənub-Qərb cəbhəsindən Brusilov, Qərb cəbhəsindən Evert idi. General Alekseyev aldığı teleqramları həmin anda Pskova göndərdi (16, 73-74).

Martın 2-i səhər saat 10-da, hələ nə Baş qərargahdan, nə də cəbhə komandirlərindən teleqram almayan general Ruzski çarın yanına getdi. Sonralar o, bu haqda yazırdı ki, «dişimi dişimə sıxıb» Rodzyanko ilə danışığımızın lentini onun qarşısına qoydum. II Nikolay sakitcə onu oxudu, sonra danışmağa başladı: «Rusiyanın səadəti üçün kənara çəkilməyə şəxsən hazırdır, lakin qorxur ki, «Xalq onu düzgün başa düşməsin» eşidiləcək bu yeni güzəşt, II Nikolayı hər hansı bir hakimiyyətdən məhrum edəcəkdi, o isə, buna getmək

istəmirdi. Bütün məsuliyyəti öz üzərinə götürməkdən çəkinən Ruzski, cəbhə komandirlərindən və Alekseyevdən cavab alana qədər söhbəti təxirə salmağı təklif etdi. O, qərargaha qayıtdı. Cəbhə komandirlərinin cavablarının məzmununu təşkil edən və genaral Alekseyev tərəfindən göndərilən teleqram artıq gəlmişdi. İndi general Ruzski onların adından da danışa bilərdi. II Nikolayla yenidən görüşməyə hazırlaşan general özü ilə iki köməkçisini götürmək qərarına gəldi. Bunlar qərargah rəisi general Danilov və təchizat rəisi general S.S.Saviç idi. Martın 2-si gündüz saat 3-ə yaxın imperator qatarının vaqon-salonuna üç general daxil oldu. Ruzski və II Nikolay qarşı-qarşıya oturdular. Danilov və Saviç isə əsgəri qaydada durmuşdular. Ruzski cəbhə komandirlərinin cavabları olan teleqramları çara göstərdi və özü də əlavə etdi ki, çıxış yolu birdir: Alekseyin xeyrinə hakimiyyətdən əl çəkmək (16, 75-76). Bütün bunlar onu göstərirdi ki, II Nikolay ordunun köməyinə arxayın ola bilməz (21, 230).

General Saviç bu hadisəni bu cür xatırlayır: «Bir neçə dəqiqə sürən ümumi sakitlik çökdü. Çar dedi: «Mən qərara gəldim. Mən taxt-tacdan imtina edirəm» - və xaç çəkdi…»

Gündüz qəbul edilmiş qərar haqqında iki teleqram tərtib edildi. Bunlardan biri Rodzyankoya, digəri isə Alekseyevə göndərilməli idi. Lakin nədənsə, II Nikolay teleqramların göndərilməsini gecikdirməyi əmr verdi. Bu hadisəyə adətən tarixçilər çox az diqqət yetirirlər. Nə baş verdi?

Teleqramların gecikdirilməsi tarixinin iki variantı mövcuddur. Bir variant onunla bağlıdır ki, yuxarıda qeyd edildiyi kimi, Dumanın Müvəqqəti komitəsi iki nümayəndəsinin Quçkov və Şulginin II Nikolayla mövcud vəziyyəti müzakirə etmək üçün Pskova göndərilmələri xəbərinin alınması idi. Məqsəd onların hansı səbəbdən gəlmələrini öyrənmək idi. Digər varianta görə, II Nikolayın teleqramların göndərilməsinin ləngidilməsi, onun ətrafı ilə əlaqəlidir. Belə ki, çarın ətrafındakı əyanlar, ona təzyiq göstərir, hətta hakimiyyətdən əl çəkməməyi tələb edirdilər. Bu variantiların hər hansı birinə üstünlük vermək çətindir. Yəqin ki, bu variantları birləşdirmək daha düzgün olar. Belə ki, teleqramların ləngidilməsi çarın yaxın dairələrindən birinin verdiyi məsləhətin nəticəsi kimi də ola bilərdi. Çünki ona hakimiyyətdən əl çəkməməzdən əvvəl gələn Duma üzlərini – Quçkov və Şulgini dinləməyin vacibliyini göstərirdilər. Duma nümayəndələri ilə II Nikolayın görüşü qatarda baş tutdu. II Nikolay Quçkov və Şulginlə söhbətdən sonra bildirdi ki, o, özünün ilk qərarını dəyişir və qardaşı böyük knyaz Mixailin xeyrinə hakimiyyətdən əl çəkir. Bu xəbəri iştirakçıların hamısı təəccüblə qarşıladılar. Eyni zamanda bu vəliəhdlik haqqında qanunun pozulması idi. II Nikolay bu yolla xəstə oğlunu xilas etmək istəyirdi (16, 76).

Hakimiyyətinin son anlarında II Nikolay iki sənəd imzaladı. İmzalanmış sənədlərdən biri qardaşı Mixail Romanovun xeyrinə özünün və oğlu Alekseyin hakimiyyətdən əl çəkməsi haqqında olan manifest idi. Digər sənəd isə knyaz Q.E.Lvovun Nazirlər Kabinetinin sədri təyin edilməsi haqqında verilmiş fərman idi. Heç kim keçmiş hökmdarı müdafiə etmədi (21, 230).

Quçkov bu hadisə haqqınlda yazmışdır: «Tam mənası ilə heç kim bizə mane olmurdu, heç kim çarı müdafiə etmirdi… Taxt-tacın ətrafı tamamilə boş idi» (9, 352).

1917-ci il martın 2-də Dövlət Dumasının Müvəqqəti komitəsi ilə Petroqrad Sovetinin əldə etdiyi razılıq əsasında və çar II Nikolayın verdiyi fərmana uyğun olaraq knyaz Q.E.Lvov başda olmaqla müvəqqəti hökumət yaradıldı. Hökumətin tərkibinə kadetlər partiyasından – 5, oktyabristlərdən – 2, proqressistlərdən – 2 və kadetlərə meylli olan 2 bitərəf daxil oldu. İlk «sosialist nazir» kimi A.F.Kerenski hökumətin tərkibinə daxil edilmişdi. Qeyd etmək lazımdır ki, Fevral inqilabına qədər o, trudoviklər qrupuna daxil idi. Fevral inqilabından sonra isə Eserlər partiyasına qoşulmuşdu (8, 142).

Martın 3-ü səhər tezdən Müvəqqəti Hökumətin Ədliyyə naziri A.F.Kerenski böyük knyaz Mixail Aleksandroviçin qaldığı mənzilə zəng edərək, ondan Dumanın Müvəqqəti Komitəsinin və Müvəqqəti hökumətin üzvlərini təcili olaraq qəbul etməsini xahiş etdi.

Səhər saat 10-a yaxın Müvəqqəti hökumətin və Dumanın Müvəqqəti komitəsinin üzvləri olan: Rodzyanko, Lvov, Milyukov, Kerenski, Nekrasov, Tereşenko, Yefremov və başqaları böyük knyazın qaldığı mənzilə gəldilər (16, 83-84). Qeyd etmək lazımdır ki, bütün bunlar faktiki olaraq qəbul edilmiş qərarlara qarşı çıxmaq idi. Belə ki, martın 2-nə keçən gecə və martın 2-də Petroqrad Sovetinin İcraiyyə Komitəsinin üzvləri ilə aparılan danışıqlarda belə bir razılığa gəlinmişdir ki, dövlətin idarə formasının ya respublika, ya da monarxiya olmasını Müəssislər Məclisi təyin etməlidir (15, 19-22). Duma liderlərinin və yenicə formalaşmış Müvəqqəti Hökumətin üzvlərinin böyük knyazın yanına gəlmələri pərdəarxası oyunun tərkib hissəsi idi. Onlar hələ də monarxiyanı xilas etmək üçün çırpınırdılar, Mixilin hakimiyyətə gətirilməsi ilə Petroqrad Sovetini və xalq kütlələrini fakt qarşısında qoymaq istəyirdilər. Düzdür, toplananların heç də hamısı bu mövqeyi dəstəkləmirdi. Lakin Milyukova əsaslanaraq demək olar ki, Mixailin qərarı qəbul etməsi təqdirdə, hamı bu qərara tabe olmalı idi.

Müzakirə zamanı iki yanaşma ortalığa qoyuldu ki, Mixail bunlardan birini seçməli idi. İştirak edənlərin çoxu hesab edirdi ki, Mixailin hakimiyyətə gəlməsi mümkün deyildir, azlıq təşkil edənlər isə Mixailin hakimiyyətə gəlməsini yeganə «xilas yolu» kimi görürdülər. Çoxluğun mövqeyini Rodzyanko ifadə edərək bildirdi ki, Mixailin çarlığı cəmi bir neçə saat olacaqdır, çünki bu xəbər yayılan kimi xalq buna qarşı çıxacaq, «çoxlu qan töküləcək», vətəndaş müharibəsi başlayacaqdır ki, bu da hökmən üsyançıların qələbəsi ilə bitəcəkdir. Azlığı təşkil edən qrup adından çıxış edən Milyukov inandırmağa çalışırdı ki, monarxiyasız Rusiya «ölümə və dağılmağa» məhkumdur və Mixail sonuncu «saman çöpüdür ki, Rusiyanı batmağa qoymaz».

Bu zaman Pskovdan yenicə qayıtmış Quçkov və Şulgin də gəlib çıxdılar. Qısa fasilədən sonra iclas öz işini davam etdirdi. Kerenski öz çıxışında Rodzyankonun fikirlərini müdafiə etdi. Quçkov isə Mixailə əks mövqeydən

təsir etməyə çalışırdı. Belə ki, o, Müəssislər Məclisinin çağırılmasına qədər Mixaili «milli rəhbər» qismində çıxış etməyə çağırırdı. Yenə söz alan Milyukov Mixaili inandırmağa çalışırdı ki, «Petroqraddan kənarda böyük knyazı müdafiə edə biləcək hərbi qüvvə yığmaq mümkündür». O, Mixailə Moskvaya qaçmaq və oradan inqilabi Petroqrada qarşı hərəkət etməyi təklif etdi.

Beləliklə, Müvəqqəti hökumət və Dövlət Dumasının Müvəqqəti komitəsinin üzvləri arasında hakimiyyətin yeni imperatora, yəni Mixailə keçməsi məsələsində parçalanma baş verdi. Yenicə formalaşmış hökumət böhran vəziyyətinə düşmüşdü. Milyukov və Quçkov onların tələblərinin rədd ediləcəyi təqdirdə istefa verəcəkləri ilə qorxudurdular. Bütün bunlar Mixailin qərar qəbul etməsinə güclü təsir göstərdi: o, olduqca tərəddüd içərisində idi.

Toplantıda iştirak edənlərin hamısı öz fikirlərini bildirdikdən sonra Mixail Rodzyanko və Lvovla təklikdə söhbət etmək istədiyini bildirdi. Onlar qonşu otağa keçdilər. Otuz dəqiqədən sonra Mixail onun qərarını gözləyənlərin qarşısına çıxdı və bildirdi ki, Rodzyankonun fikrini müdafiə edir. Bu isə o demək idi ki, Mixail hakimiyyətdən əl çəkir.

Mixailin hakimiyyətdən imtina etməsini rəsmiləşdirmək üçün dövlətçilik üzrə hüquqşünaslar V.D.Nabokov və B.E.Nolde dəvət olundular. 1917-ci il martın 4-nə keçən gecə Tavriçeski sarayında dərc edilməsi üçün iki sənəd tam şəkildə tərtib edildi. Birinci sənəd «İmperator II Nikolayın böyük knyaz Mixail Aleksandroviçin xeyrinə hakimiyyətdən imtina etməsi haqqında akt», ikincisi isə «Böyük knyaz Mixail Aleksandroviçin ali hakimiyyəti qəbul etməsindən imtina etməsi haqqında akt» idi (16, 84-87). Bu sənədlər 300 ildən artıq hakimiyyətdə olan Romanovlar sülaləsinin hüquqi cəhətdən hakimiyyətlərinin sonu demək idi. Ölkədə yeni ictimai-siyasi vəziyyət, ikihakimiyyətlilik dövrü başladı.

**(ardı var)**

**ƏDƏBİYYAT**


1. AR SPİHMDA, fond 276, siyahı 7, iş 216
2. AR SPİHMDA, fond 276, siyahı 7, iş 272
3. Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı: 1998.
4. Azərbaycan tarixi. 7 cilddə. V c. Bakı: 2008, 292 s.
5. Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı: 2011, s.48-49
6. İbrahimova A.Z. Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi /1917-1918-ci illər/. Bakı: 2010, s.32
7. SSRİ tarixi. Ikinci hissə. 1861-1917. Bakı:1982, s. 481-482
8. Басманов М.И., Гусев К.В., Полушкина В.А. Сотрудничество и борьба. М.: 1998.
9. Бурджалов Э.Н. Вторая русская революция. Восстание в Петрограде. М.: 1967.
10. Буржуазные и мелкобуржуазные партии России в Октябрьской революции и гражданской войне. М.: 1980, с. 109-110
11. Великий Октябрь и защита его завоеваний. Т.1., М.: 1987, с. 58
12. Гасанлы Дж.П. Русская революция и Азербайджан: трудный путь к независимости. 1917-1920. М.: 2011, с. 35
13. Гусев К. Крах партии левых эсеров. М.: 1963, с.45
14. Думова Н.Г. Кончилось ваше время… М.: 1990.

15. Знаменский О.Н. Всероссийское Учредительное собрание. Л.: 1976.
16. Иоффе Г.З. Великий Октябрь и эпилог царизма. М.: 1987.
17. Ирошников М.П. Рожденное Октябрем. Ленинград: 1987, с. 20-21
18. История КПСС. Том третий, книга первая. М.: 1967, стр. 8-9
19. Рабинович А. Большевики приходят к власти: Революция 1917 года в Петрограде. М.: 1989.
20. Соболев Г.Л. Петроградский гарнизон в борьбе за победу Октября. Ленинград: 1985.
21. Спирин Л.М. Крушение помещичьих и буржуазных партий в России (нач. XX в. - 1920). М.: 1977.

## ФЕВРАЛЬСКАЯ РЕВОЛЮЦИЯ: ПАДЕНИЕ ЦАРИЗМА И ПОЛИТИЧЕСКИЕ ПАРТИИ

**И.А.ГУЛИЕВ**

### РЕЗЮМЕ

Февральская революция покончила в России династию Романовых. В стране власть перешла в руки Петроградского Совета и Временного Правительства. Образовалось двоевластие. В национальных регионах созданы органы местной власти. Активизировались партии и организации.

**Ключевые слова:** Февральская революция, рабочий, солдат, царь, Петроградский Совет, Временное правительство, политические партии, двоевластие

## FEBRUARY REVOLUTION: THE FALL OF THE TSARIST AND POLITICAL PARTIES

**I.A.GULIYEV**

### SUMMARY

The February Revolution put an end to the Russian Romanov dynasty. The contry’s power passed into the hands of the Petograd Soviet and the provisional Government. There was formed diarchy. Local authorities were established in the ethnic regions. Parties and organizations livened up.

**Key words:** February revolution, worker, soldier, tsar, Petrograd Soviet, provisional government, political parties, diarchy